


# Qarabağda ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti:

# Xocalı soyqırımı

**Əfqan Vəliyev**
**Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü**



**(əvvəli ötən sayımızda)**

***...Xocalı soyqırımının məqsədi; Mənfur planı həyata keçirmək naminə Ermənistan hərbi-siyasi hakimiyyətinin xeyli əvvəl bu soyqırımı hazırladığını soyqırımın məqsəd və niyyətini aşağıdakı iddia və tezislərdə də, təsdiqini tapır;***

Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdilər ki, onlar bizimlə zarafat edirlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıra bilməz. Biz bu [stereotipi] qıra bildik. Və budur baş verənlər (Serj Sarkisyan) Jurnalistin minlərlə adamın ölməsindən təəssüf keçirdib-keçirmədiyi barədə sualına Serj Sarkisyan bu cavabı vermişdir: Mən heç bir təəssüf keçirmirəm...hətta minlərlə əhali ölərsə bu cür sərt gedişlər zəruridir[3];

Xocalını mühasirəyə alaraq Azərbaycandan ayırmaq, Azərbaycandan gələn dəstəyin qarşısını alaraq, Xocalını, Azərbaycan və dünyadan təcrid edib soyqırım törətməyə nail olmaq;

Misli görünməyən vəhşiliklə soyqırım törədib azərbaycanlıları qorxudub gözdağı verməklə, əsgərlərdə döyüş əzmini sındırmaq, fərarilik və anarxiya mühiti yaratmaqla döyüş və qələbəyə inamı sındırmaq;

Soyqırım vasitəsi ilə siyasi xaosa səbəb olmaq, xalqı və ordunu mövcud siyasi iqtidara qarşı ayağa qaldırıb, vətəndaş qarşıdurması yaratmaq, ordunu siyasətə qarışdırıb siyasi iqtidar mübarizəsində iştirak üçün cəbhə bölgəsini tərk etməsinə nail olmaqla Azərbaycan torpaqlarını işğal etmək;

***Xocalıda qaçıb xilas olmağa can atan Azərbaycanlı mülki əhalinin ermənilər tərəfindən əvvəlcədən xüsusi olaraq hazırlanmış pusqu yerlərindən avtomatlardan, pulemyotlardan və digər silah növlərindən atəşə tutulması;***

***Bu cinayətin məhz azərbaycanlı milli qrupuna qarşı yönəlmiş olması.***

Xocalıda qətliam və soyqırım: 1991-ci ilin oktyabrından Ermənistan silahlı qüvvələrinin mühasirəsində olan şəhərə avtomobil nəqliyyatı da oktyabrın 30-dan bağlanıb. Tək nəqliyyatın hava ilə təmin oluna bildiyi şəhərə Azərbaycanda mövcud olan yalnız bir neçə helikopterlə çatmaq mümkün idi. Yanvarın 2-də şəhərin elektrik xətləri kəsilib və şəhər qaranlıqda qalıb. Sonuncu helikopter 1992-ci il yanvarın 28-də Xocalıya getdi. Şuşa yaxınlığında Ermənistan ordusu tərəfindən şəhərdən mülki əhalini təxliyə edən və içində 40 nəfərin olduğu helikopterin vurulmasından sonra Xocalıya hava nəqliyyatı da kəsilib. Ərzaq və yanacaq qıtlığı ilə öz taleyinə tərk edilmiş Xocalı aclıqdan və xəstəlikdən əziyyət çəkirdi. Ermənistan ordusu, Müstəqil Dövlətlər Birliyinin tərkibindəki keçmiş Sovet İttifaqının silahlı qüvvələrinin 366-cı motoatıcı alayının dəstəyi ilə Fevralın 25-i gecə saat 11-də mühasirəyə aldıqları şəhərə aramsız, fasiləsiz vertolyotlardan, tanklardan və iriçaplı pulemyotlardan güllələr yağdırıb Əvvəlcə, evlərdə və postlarda qurulmuş barrikadaları dağıtdıqdan sonra Fevralın 26-sı səhər saat 1-dən 4-ə kimi quru qoşun birləşmələri şəhərə daxil oldular1. Ermənistan Ordusunun birləşmələri zirehli texnikadan - zirehli maşınlar və tanklardan istifadə edərək hücumda iştirak etdi. Son müqavimət səhər saat 7-də qırıldı. Hücum zamanı Xocalıda qeyri-müəyyən sayda dinc sakin şəhərin bombardmanı zamanı qətlə yetirildi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xocalı şəhərinin dinc sakinlərinə qarşı soyqırım, kütləvi zorakılıq, şəhərin işğalına yönəlmiş hərbi əməliyyat həyata keçirdi4. Şəhərin atəşə tutulmasında 8 yaxud 9 növ silah, artilleriya, ağır pulyemotlardan istifadə olunub. İnsanlar küçələrə çıxıb, bəziləri gizlənbi, digərləri isə qarın içi ilə meşələrə doğru qaçmağa başlayıb. Xilas olmaq üçün şəhər camaatı təxminən 15 km məsafədə yerləşən Azərbaycan şəhəri Ağdama çatmalı idi. Sübh çağı iki Azərbaycan kəndi Naxçıvanik və Sədərək arasındakı yerə çatanda ermənilərin "azad dəhliz" yaratdıq dedikləri ərazidə hamısı erməni qətliamının qurbanı oldu. Ermənistan ordusunun əsgərləri Xocalı şəhərinə daxil olaraq şəhəri xarabalığa çevirib, tarixin ən amansız və qanlı qırğınını törətdilər. Qadın, yaşlı, uşaq demədən önlərinə çıxan hər canlı qəddarcasına, acımadan öldürdülüb. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynini birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil4

Şəhərin erməni hərbi birləşmələri tərəfindən işğalından sonra təxminən 300 dinc sakin (86 məshəti türkü) şəhərdə qalmışdı. Hər iki tərəfdən alınmış məlumata əsasən, Xocalı şəhərində və Ağdama gedən yolda əsir götürülmüş 700-dən çox sakin 1992-ci il martın 23-nə kimi girov kimi saxlanılıb xəstə, əlil və yaralı vəziyyətdə Azərbaycan tərəfinə qaytarılıb. Onların əksəriyyəti qadın və uşaqlardır. Xocalıdan qaça bilən sakinlərin öz mülkiyyətlərinin hətta ən vacib hissələrini belə götürməyə imkanları olmamışdı. Erməni silahlı qüvvələri tərəfindən əsir götürülən sakinlər də əmlaklarından heç nə götürə bilməyib. Erməni hərbi-siyasi rəhbərliyi əhalinin şəhəri tərk etmələri üçün "azad dəhliz" yaratdıb iddia etsə də sağ qalan Xocalı sakinlərinin dedikləri və törədilən amansız soyqırım hadisəsi "azad dəhliz"in olmadığını göstərir. Xocalı sakinlərinin əmlakları Xankəndi və qonşu yaşayış məntəqələrinin sakinləri tərəfindən şəhərdən aparılmışdı. Evlərin əksəriyyətinin qapılarının üzərində onların yeni sakinlərinin adları yazılmışdı

***Xocalıdakı maddi-mədəni irsə qarşı erməni terroru; Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji əhəmiyyətə malik Xocalı şəhəri, sözün əsl mənasında, xarabalığa çevrilib. Təkcə onu qeyd etmək kifayətdir ki, ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib[4]...***

**(ardı gələn sayımızda)**